...Allahdan qorxurdu. Səhər tezdən xoruz banlayanda yerindən qalxdı. “Şükür sənə, ya Rəbbim”. Gözünü ağır-ağır açıb evə nəzər saldı. Sobadan düşən kölgə-işıq oyununda dünən gecədən yaddaşında qalmış əşyalara göz gəzdirdi. Sanki gözünün görüb-görmədiyini yoxlayırdı. Hər şey gecə yatmazdan əvvəl olduğu kimi idi. “Ya Allah”. Yerindən qalxdı. Bir-iki addım səntirləyəndən sonra yerişini düzəltdi. “Aha, bu da çəkələklərim”. Hamam otağına gözüyumulu



RAFİQ HƏŞİMOV

# ALLAHDAN QORXURDU

*hekayə*

da gedə bilərdi. “Bismillah”. Əllərini krandan gələn sərin suyun altına uzadıb yuyundu. “Bismilləhir-rəhmanir-rəhim”. Vanna otağından çıxıb əl-üzünü quruladı. “Şükür sənə, xudaya”. “Canamazım hanı?” - özözündən soruşdu. Və gecə kreslonun üstünə qoyduğu, üstündə Kəbə rəsmi toxunmuş namaz xalçasını götürdü. “Bismillah”. Üzünü yatağının baş tərəfinə çevirib canamazı döşəməyə sərdi. “Bismillah”. Suvaqlı divara baxdı. “Allahu əkbər, Allahu əkbər!” Dua eləyirdi. Hıçqırtısı eşidilirdi. Arada Allahu əkbər deyirdi. Duranda gözünün nəmini silib işıqlanan çölə baxdı. Həyətə çıxdı. Arılar qışda əkdiyi çiçəklərin ətrafında rəqs eləyirdilər. Sevinirdi. “Özüm də bilmədən yaxşı güllər əkmişəm”. Toxum səpmişdi, bilmirdi nə bitəcək. Arılar qönçələrin içinə belə doluşublarsa, demək, yaxşı güllərdi. “Şükür Sənin böyüklüyünə”. Ensiz daşlı cığırla toyuq damına tərəf getdi. Toyuqlar vərdiş eləmişdilər bu saatın addım səslərinə. Heç səslərini də çıxartmadılar. Tanıyırdılar onu. Qapının paslı cəftəsini taraqqıltıyla açıb içəri girdi. İri, yaxşı bəslənmiş toyuqları yerindən qaldırıb altlarındakı yumurtaları ehmalca o biri əlinə yığdı. “Şükür bərəkətinə, İlahi!”.

Hindən çıxdı. Ağacların tumurcuqlamış, çiçəkləmiş, tərli budaqlarına xeyli tamaşa elədi, ovuclarındakı yumurtalara baxdı, sanki nəyisə xatırlayıb evə gəldi. Mətbəxə keçdi. “Ya Allah!” Yumurtaları stolun üstünə qoydu. “Şükür Sənin bərəkətinə, ya Rəbbim!” Oğlu yatan otağın qapısını yavaşca açıb baxdı... Yatıb... Astaca səslədi. “Bismillah!” - A bala, dur namazını qıl, sabahdı, çörək ye. Qayıtdı mətbəxə. Bir az keçmiş yenə oğlu yatan otağa qayıtdı. - Durmursan? Yeməyin hazırdı. Yenə qayıtdı mətbəxə. Oğlu yuyunub hamamdan çıxdı. Stolun üstünə çörək, dəsmal, duz, bir stəkan da çay düzülmüşdü. - Otur, bala. Qayğanağı elə tavadaca stola qoydu. - Çörəyini ye - özü də oturub oğlunun yeməyinə baxırdı.

- Necə bişib?
- Yaxşıdı.
- Nuş olsun.
- Yuxuda nə görmüsən?
- Nə bilim, a bala, elə qarışıq yuxu görmüşəm ki... Sən narahat yatmısan, zığıldıyırdın yuxuda.
- Allah xeyirlisindən eləsin...
- Bilirsən nə fikirləşirəm? Həyətimizdəki ağaclar bir-iki ay əvvəl qup-quru idi. İndi baxıram yarpaqlayıb, çiçək açıb... Su dəyib da yəqin... Deyirəm, şükür Sənin birliyinə, böyüklüyünə İlahi, heç nədən o boyda şey yaradırsan...

